**Layihə**

# “AUDİTORUN PEŞƏ MƏSULİYYƏTİNİN İCBARİ SIĞORTASI HAQQINDA” AZƏRBAYCAN RESPUBLİKASININ QANUNUNDA DƏYİŞİKLİK EDİLMƏSİ BARƏDƏ

AZƏRBAYCAN RESPUBLİKASININ QANUNU

Azərbaycan Respublikasının Milli Məclisi Azərbaycan Respublikası Konstitusiyasının 94-cü maddəsinin I hissəsinin 27-ci bəndini rəhbər tutaraq, “İcbari sığortalar haqqında” Azərbaycan Respublikasının Qanununda dəyişikliklər edilməsi barədə” Azərbaycan Respublikasının 2014-cü il 20 iyun tarixli 1000-IVQD nömrəli Qanununun tətbiqi ilə əlaqədar **qərara alır:**

“Auditorun peşə məsuliyyətinin icbari sığortası haqqında” Azərbaycan Respublikasının Qanununda (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2007, № 8, maddə 747; 2008, № 11, maddə 960; 2015, № 4, maddə 350; 2016, № 3, maddə 418; Azərbaycan Respublikasının 2018-ci il 28 dekabr tarixli 1414-VQD nömrəli və 9 aprel 2019-cu il tarixli 1563-VQD nömrəli Qanunları) aşağıdakı dəyişikliklər edilsin:

1. 8.10.1. maddəsində “1000” rəqəmi “5000” rəqəmi ilə əvəz edilsin;
   8.10.2. maddəsində “3000” rəqəmi “10000” rəqəmi ilə əvəz edilsin.

**Azərbaycan Respublikasının Prezidenti**

Bakı şəhəri, ... 2021-ci il
№ ...

**“Auditorun peşə məsuliyyətinin icbari sığortası haqqında” Azərbaycan Respublikasının Qanununa dəyişiklik edilməsi barədə “Auditorun peşə məsuliyyətinin icbari sığortası haqqında” Azərbaycan Respublikasının Qanununun layihəsinin qəbul olunması zərurətinin əsaslandırılması**

“Auditorun peşə məsuliyyətinin icbari sığortası haqqında” dəyişiklik və əlavələr edilməsi barədə Azərbaycan Respublikasının *Qanun layihəsinin (bundan sonra – layihə) hazırlanmasının məqsədləri, onun mövcud hüquqi tənzimləmədə dəyişikliklər edən elementlərinin hüquqi tənzimləmə predmeti:*

Layihə «Auditorun peşə məsuliyyətinin icbari sığortası haqqında Azərbaycan Respublikasının Qanununa dəyişiklik və əlavələr edilməsi barədə» icrasının təmin edilməsi və respublikamızda auditor xidmətinin normativ hüquqi bazasının daha da təkmilləşdirilməsi məqsədilə hazırlanmışdır.

Sərbəst auditor və ya auditor təşkilatları göstərdiyi xidmətdə hansısa bir səhvə yol verərsə sığorta məbləğinin yüksək olması, bu məsələdən daha az ziyanla çıxmasını təmin edəcək. Auditor xidmətlərinin orta qiymət dəyəri 10000 manat olmasına əsaslanaraq sığorta məbləğinin sərbəst auditorlar üçün 5000 manat, auditor təşkilatları üçün 10000 manat olmasını təklif edirik. Araşdırmalar göstərir ki, MDB ölkələrinin əksəriyyətində (Rusiya, Ukrayna və Gürcüstan) sığortanın məbləği auditorun və audit keçirən subyektin razılaşma əsasında təyin edilir. Belarusda isə sığorta məbləği Belarus rublunun 1000 ölçü vahidi mislinə bərabərdir (əsas vahid ölçüsü 29 rubula bərabərdir). Azərbaycan manatı ilə müqayisədə bu məbləğ 18922 manata bərabərdir. Qanunda edilən bu dəyişiklik sərbəst auditor və auditor təşkilatlarının fəaliyyətinə müsbət təsir göstərəcək.

Bununla əlaqədar olaraq layihədə «Auditorun peşə məsuliyyətinin icbari sığortası haqqında» Azərbaycan Respublikasının Qanununa dəyişiklik və əlavələr edilməsi barədə “Auditorun peşə məsuliyyətinin icbari sığortası haqqında” Azərbaycan Respublikasının Qanununda dəyişiklik olunması təklif edilir.

1. 8.10.1. maddəsində “1000” rəqəmi “5000” rəqəmi ilə əvəz edilsin;

   8.10.2. maddəsində “3000” rəqəmi “10000” rəqəmi ilə əvəz edilsin.

*Layihənin qəbul edilməsinin ehtimal olunan nəticələrinin proqnozlaşdırılması:*

Azərbaycan Respublikası Auditorlar Palatasının üzvləri olan sərbəst auditor və auditor təşkilatlarının “Auditorun peşə məsuliyyətinin icbari sığorta haqqında” Qanunda edilən dəyişikliklər (sığorta məbləğinin yüksəldilməsi), yuxarıda qeyd olunanların iş fəaliyyətinə müsbət təsir edəcək.

*Layihənin qəbul edilməsi ilə əlaqədar ləğv edilməli, dəyişikliklər edilməli, habelə hazırlanmalı olan normativ hüquqi aktlar (onların struktur elementləri) yoxdur.*

**Azərbaycan Respublikası Auditorlar Palatasının hüquqi tənzimlənməsi, dempinqə qarşı mübarizə və keyfiyyətin yüksəldilməsi idarəsi**

**“Auditorun peşə məsuliyyətinin icbari sığortası haqqında” Azərbaycan Respublikasının Qanununa dəyişiklik edilməsi barədə “Auditorun peşə məsuliyyətinin icbari sığortası haqqında” Azərbaycan Respublikasının Qanun layihəsinə dair məcburi hüquqi ekspertiza rəyi**

1. Mövcud bazarda hal-hazırda auditor xidmətinin orta dəyəri 10000 manat təşkil edir. Eyni zamanda məcburi audit subyektləri üçün tövsiyə olunan minimal xidmət haqları 10000 manat təşkil edir. Bunlara əsasən sığorta məbləğinin sərbəst auditorlar üçün 5000 manat, auditor təşkilatları üçün 10000 manat olmasını təklif edirik. Araşdırmalar göstərir ki, MDB ölkələrinin əksəriyyətində (Rusiya, Ukrayna və Gürcüstan) sığortanın məbləği auditorun və audit keçirən subyektin razılaşma əsasında təyin edilir. Belarusda isə sığorta məbləği Belarus rublunun 1000 ölçü vahidi mislinə bərabərdir (əsas vahid ölçüsü 29 rublu bərabərdir). Azərbaycan manatı ilə müqayisədə bu məbləğ 18922 manata bərabərdir. Qanunda edilən bu dəyişiklik sərbəst auditor və auditor təşkilatlarının fəaliyyətinə müsbət təsir göstərəcək.

Bununla əlaqədar “Auditorun peşə məsuliyyətinin icbari sığortası haqqında” Azərbaycan Respublikasının Qanuna dəyişiklik və əlavələrin edilməsi layihəsi (bundan sonra - layihə) hazırlanmışdır.

2. Layihə “Normativ hüquqi aktlar haqqında” Konstitusiya Qanununun 8-ci maddəsində təsbit olunan normayaratma fəaliyyətinin əsas prinsiplərinə uyğundur.

3. Layihənin normaları onun məqsəd və vəzifələrinə uyğundur.

4. Layihə normativ tənzimləmə predmetinə uyğundur.

5. Layihənin forması və mahiyyəti uyğundur.

6. Layihənin daxili strukturu məntiqlidir.

7. Layihəyə daxil edilən normalar qarşılıqlı ziddiyyətsizdir.

8. Layihədə bir dövlət orqanının digər dövlət orqanının səlahiyyətlərinə müdaxiləsinə yol verilməmişdir.

9. Azərbaycan Respublikasının Milli Məclisi Azərbaycan Respublikası Konstitusiyasının 94-cü maddəsinin I hissəsinin 27-ci bəndinə uyğun olaraq layihənin Azərbaycan Respublikası Milli Məclisi tərəfindən qəbul edilməsi təklif olunur.

10. Azərbaycan Respublikası Konstitusiyasının 93-cü maddəsinin I hissəsinə uyğun olaraq layihənin qanun formasında qəbul edilməsi təklif olunur.

11. Layihə normayaratma texnikasına uyğun şəkildə hazırlanmışdır.

12. Layihədə sui-istifadə amilləri və sui-istifadəyə məruz qalma təzahürləri, sui-istifadənin təzahürləri üçün şərait yaranmasına kömək edən digər müddəalar aşkar edilməmişdir.

13. Layihənin qəbul edilməsi ilə əlaqədar ləğv olunmalı və ya dəyişikliklər edilməli normativ hüquqi aktlar (onların struktur elementləri) yoxdur.

14. Layihənin qəbul edilməsi ilə əlaqədar hazırlanmalı olan normativ hüquqi aktlar (onların struktur elementləri) yoxdur.

15. Layihə dəstəklənir.

**Azərbaycan Respublikası Auditorlar Palatasının hüquqi tənzimlənməsi, dempinqə qarşı mübarizə və keyfiyyətin yüksəldilməsi idarəsi**

“Auditorun peşə məsuliyyətinin icbari sığortası haqqında” Azərbaycan Respublikasının Qanununa dəyişiklik edilməsi məqsədi ilə Qanuna dəyişiklik və əlavə edilməsi layihəsini hazırlamış şəxslərin siyahısı:

Elnur İbrahimov - Azərbaycan Respublikası Auditorlar Palatasının Auditin hüquqi tənzimlənməsi, dempinqə qarşı mübarizə və keyfiyyətin yüksəldilməsi idarəsinin rəisi;

Firəngiz Axundova - Auditin hüquqi tənzimlənməsi, dempinqə qarşı mübarizə və keyfiyyətin yüksəldilməsi idarəsinin rəis müavini əvəzi.